**Natəvan BAĞIROVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**natavan.kanan@mail.ru**

# NABİĞƏ ZÜBYANİNİN "İTİZARİYYAT" ŞEİRLƏRİ

Cahiliyyət dövrünün görkəmli şairlərindən olan Ziyad ibn Müaviyə Nabiğə əz-Zübyani qədim ərəb dövlətləri olan Qəssani və Ləxmilərin saray şairi olmuş, hökmdarlara mədhiyyə və mərsiyələr yazmışdır. Nabiğə üçün mədhiyyə janrı həm də qəbiləsinin nüfuzunu qorumaq idi. Ona görə də Nabiğənin bəzi mədhiyyələri onun siyasi və ictimai görüşlərinə söykənir. Qəssani hökmdarlarından Əmr ibn Harisə, onun qardaşı Nüman ibn Harisə, Ləxmilərdən Əmr ibn Hində və Nüman ibn Münzirə şeirlər yazmışdır.

O, mənsub olduğu bəni-Zübyan qəbiləsinin danışan dili və müdafiəçi natiqi idi. Sözünün bəlağətinə görə ad çıxarmış şairin qızı Umamə (bəzi mənbələrdə Əqrəb) Qəssanilərlə Zübyan qəbiləsi arasındakı döyüşdə əsir düşmüş, Qəssani sərkərdəsi Vail ibn Cullah əl-Kəlbi onun şair Nabiğənin qızı olduğunu bildikdə bütün əsirlərlə bərabər azad etmişdi. Bu hadisədən sonra şair sərkərdəyə mədhiyyə həsr etmişdi.

Hirə sarayında hökmdar Nüman ibn Münzirin (580-602) saray şairi olmuş Nabiğə Zübyani qızıl və gümüş qablarda yeyib-içərmiş. Şeir və şairlərə böyük rəğbət bəsləyən Nüman bir dəfə şairdən arvadı Mütəcərridəni vəsf etməsini istəmiş, şairin şeirindəki açıq-saçıq ifadələr hökmdarda bədgümanlıq yaratmışdı. Deyilənə görə, saray şairlərindən olan Münəxxəl əl-Yəşkuri onun ifadələrinin şahidi olmadığı şeylərdən yaza bilməyəcəyini Nümana xəbər vermiş, bundan qorxan Nabiğə də ordan qaçıb Qəssanilərin sarayına sığınmışdı.

Sonra "İtizariyyat" ("Üzrxahlıq şeirləri") yazan şairi hökmdar bağışlamış və o, yenidən Hirə sarayındakı əvvəlki məqamına qayıtmışdı. Nüman ölənədək onun saray şairi olmuş Nabiğə sonra qəbiləsinə qayıtmış və peyğəmbərin besətindən az əvvəl vəfat etmişdi.

Şair üzrxahlıq məqsədilə yazdığı "Bəiyyə" qəsidəsində Nümanı belə mədh edir:

ألم ترى أن الله أعطاك سورة ترى كل ملك دونها يتذبذب
بأنك شمس و الملوك كواكب أذا طلعت لم يبد منهن كواكب

*"Məgər görmürsən Allah sənə elə bir sima bəxş edib ki, bütün padşahlar görsə əriyər?! Sanki sən günəş, digər padşahlar ulduzdurlar. Günəş çıxanda ulduzlar görünməz olur".*

"İtizariyyat" şeirlərini təhlil edən professor A.Qasımova bu şeiri müəlləqə-mədhiyyə hesab edir.

أنبئت أن أبا قابوس أوعدني و لا قرار على زأر من الأسد
مهلا فداء لك الأقوام كلهم و ما أثمر من مال و من ولد

*"Mənə xəbər verdilər ki, Əbu Qabus məni hədələyib. Şir nərə çəkərkən qarşısında tab gətirmək olar?*

*Boş ver. Camaat hamısı sənə qurban olsun. Onlardan nə övlad, nə də var-dövlət gördüm".*

Şeiri bəyənən hökmdar şairə yüz qara dəvə, çobanlar, qaradərili kənizlər və qara çadırlar bağışlayır. "Ayniyyə" qəsidəsində isə Nabiğə hökmdarı gecəyə bənzədir:

فأنك كاليل الذي هو مدركي و أن خلت أن المنتأي عنك واسع

*"Həqiqətən, sən məni dərk edən gecə kimisən. Mənsə səndən uzaqlaşıb rahatlayacağımı xəyal etmişdim".*

Məşhur hədisçi və təfsirçi İbn Abbas ən yaxşı şairin kim olduğunu Əbul Əsvəd Duəlidən soruşduqda o, bu misraları sitat gətirərək Nabiğənin qüdrətli söz ustası olduğunu demişdi.

Gecə mövzusu Nabiğənin "İtizariyyat"ında mühüm yer tutur. O, qorxu və qəmini gecəyə danışır, onunla bölüşür. Hətta bu, ərəb ədəbiyyatında bir məsələ çevrilib: "ليلة نابغية". "Bəiyyə" qəsidəsində hökmdara onun haqqında çuğulçuluq edənləri xain və yalançı adlandırır.

Nabiğənin "İtizariyyat"ının təzahürü Kəb ibn Zübeyrin "Burdə" qəsidəsində də aşkar duyulur. "İtizariyyat" silsiləsindən olan şeirlərdə peşmançılıq, üzrxahlıq motivləri əks olunsa da, burda üzr istənilən şəxsin (hökmdar, peyğəmbər) ali keyfiyyətləri təsvir olunur, mədh ünsürlərinə daha geniş yer verilir.

**Natavan Baghirova**

## "I'TIDHARIYA" POEMS OF NABIGHA AL-DHUBYANI

***Summary***

Before the Islamic period the great poet Nabiga al-Dhubyani was known as a poet, who wrote panegyrical verses in the Ghassanids and Lakhmids palaces. The famous palace poet praised the Hirah's ruler Nu'man ibn Munzir's wife Mutajarrida at his request. The poet's outspoken remarks about Mutajarrida's body were used against him by envious people in the palace, and they got the poet removed from the palace. The poet who wanted to return to the Hirah palace, writing apology poems "I'tidhariya", returned to the palace of Nu'man. The poet praised the generosity, invincibility and kindness of the ruler in the "I'tidhariya" poems.